

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 8 (23.420)

16 yanvar 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadəni qəbul edib.

Dövlət başçısı ötən il Azərbaycanda bütün sahələr kimi, nəqliyyat sahəsinin də inkişaf etdiyini, bu inkişafın həm real layihələrdə özünü göstərdiyini, eyni zamanda beynəlxalq təşkilatların hesabatlarında əksini tapdığını bildirib. Vurğulayıb ki, təkcə onu demək kifayətdir ki, keçən il avtomobil yollarının tikintisi istiqamətində rekord nəticə əldə edilib, 1300 kilometr avtomobil yolu çəkilib. Beləliklə, həm şəhərlərarası nəqliyyatın işi yaxşılaşdırılıb, eyni zamanda magistral yolların çəkilişi davam etdirilib, yüzlərlə kəndin yolu abadlaşdırılıb və yenidən qurulub. Diqqətə çatdırılıb ki, Azərbaycan həm nəqliyyat, həm rabitə, həm də yüksək texnologiyalar sahəsində bundan sonra da regionda liderlik mövqelərini qorumalıdır və biz öz potensialımızı artırmalıyıq.

Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə cənab Prezidentin nəqliyyatla bağlı verdiyi tapşırıqlara əsasən bildirib ki, biz regionlarda bu sahəyə daha çox diqqət yetirməliyik, çünki regionlarda standartlara tam cavab verməyən nəqliyyat vasitələri var və biz bu istiqamətdə işlərimizi aparmalıyıq.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində yanvar ayının ilk 15 günü ərzində müəyyən qərarlar qəbul edilmişdir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 yanvar tarixli 5 nömrəli Qərarı ilə "Aqrar Sığorta Fondunun Nizamnaməsi" təsdiq edilmişdir. Fondun yaradılmasında məqsəd aqrar sığorta sisteminin təşkilini, inkişafını, dayanıqlılığını və fasiləsiz fəaliyyətini təmin etməkdən ibarətdir.

Həmin tarixdə "Sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinin təmin edilməsi üçün aqrar sığorta orqanının müraciətinə əlavə ediləcək sənədlərin Siyahısı", "Aqrar sığorta predmetinin Tərkibi"nin və "Aqrar sığorta haqqının hər bir sığorta məhsulu üzrə dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsinin" təsdiq edilməsi haqqında Qərarlar qəbul edilmişdir.

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 9 nömrəli Qərarı ilə "Ordubad Rayon Uşaq Xəstəxanası" publik hüquqi şəxsinin nizamnaməsi təsdiq edilmişdir. Xəstəxananın fəaliyyətinin məqsədi xidmət göstərdiyi əhalinin sağlamlığının qorunması və bu sahədə hüquqlarının təmin edilməsindən ibarətdir.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 9 sentyabr tarixli 86 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları"nda da dəyişiklik edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar. nakhchivan.az*) tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin ötən ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı iclası keçirilib.*

İclası giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev açaraq 2019-cu ildə muxtar respublika məhkəmələri tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verib. Bildirib ki, ötən il də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, rayonlarda vətəndaşların qəbulu həyata keçirilib, eləcə də qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə müntəzəm olaraq əhali arasında hüquqi təbliğat və izahat işləri aparılıb.

Qeyd olunub ki, muxtar respublika məhkəmələrinin fəaliyyətində çevik idarəetmə, şəffaflıq, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi təmin olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə muxtar respublikada fəaliyyət göstərən məhkəmələrdə "Elektron məhkəmə" informasiya sistemi tətbiq olunmağa başlanılıb.

Məhkəmə sədri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar "İdeyadan başlanğıca" devizi altında startap layihələrin həyata keçirilməsi və dəyərləndirilməsi məqsədilə ekspert qrupu yaradıldığını, bu istiqamətdə tələbələrlə çoxsaylı görüşlər keçirildiyini bildirib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sədri Əli Allahverdiyev Naxçıvan Muxtar Respublikası rayon (şəhər) məhkəmələri tərəfindən 2019-cu ilin birinci yarısında baxılmış mülki işlərin ümumiləşdirilməsinin nəticələri barədə, Ali Məhkəmənin hakimi Vüqar Quliyev Naxçıvan Muxtar Respublikası birinci instansiya məhkəmələri tərəfindən 2019-cu ilin birinci yarısında baxılmış cinayət və inzibati xətalara dair işlərin ümumiləşdirilməsinin nəticələri haqqında məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən kollegiya iclasını nazir Rövşən Məmmədov açıb. Bildirib ki, muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi 2019-cu ildə də davam etdirilib. Belə ki, il ərzində plan tapşırıqlara 100,9 faiz əməl olunub, tarif gəliri əlavə dəyər vergisiz 9 milyon 617 min 672 manat təşkil edib.

Qeyd olunub ki, il ərzində Ordubad rayonunun Dəstə kəndində 704, Şərur rayonunun Kərimbəyli kəndində 384, Alışar kəndində 384, Babək rayonunun Kültəpə kəndində 192, Şahbuz rayonunun Türkeş kəndində 96 nömrəlik avtomat telefon stansiyaları yeni tikilən kənd mərkəzlərinə köçürülüb, standartlara uyğun yenidən qurulub. Ötən il muxtar respublikanın quruculuq işləri aparılan bir sıra yaşayış məntəqələri müasir telefon stansiyaları ilə təmin olunub. Belə ki, Şərur rayonunun Muğanlı kənd rabitə evində 192, Yeni Havuş və Xətai kəndlərini əhatə edən rabitə evində 192, Xələc kəndində 256, Məmmədsabir kəndində 256, Muğancıq Mehrab kəndində 192, Babək rayonunun Gülşənabad kəndində 192 nömrəlik yeni nəsil avtomat telefon stansiyaları qurulub. Həmçinin əhalinin tələbatı nəzərə alınaraq Babək rayonunun Nəcəfalıdizə kəndində 32 nömrəlik, Naxçıvan şəhərinin Hacıniyyət kəndində və Şəhriyar küçəsində hər birinin montaj tutumu 608 nömrə olan avtomat telefon stansiyaları açıq ərazilərdə qurularaq istifadəyə verilib.

Vurğulanıb ki, il ərzində 2329 yeni telefon nömrəsi istismara verilib. "Evədək optika" layihəsi çərçivəsində 35 fərdi mənzilə fiber-optik kabel



xətti çəkilib və GPON avadanlığı quraşdırılıb. Muxtar respublikada yeni nəsil texnologiyaların tətbiqi ilə əlaqədar 5-ci mərhələ üzrə işlər tamamlanıb, Culfa rayonunu əhatə edən bu layihə üzrə mövcud 21 ədəd Daewoo və Karel tipli avtomat telefon stansiyaları demontaj olunaraq yeni nəsil avtomat telefon stansiyaları ilə əvəz olunub. Ümumilikdə, bu layihə ilə Culfa rayonu ərazisində 28 yeni nəsil telefon stansiyasının quraşdırma-tənzimləmə işləri başa çatdırılıb. Bundan əlavə, rayonun Əbrəqunus və Ərəfsə yaşayış məntəqələri arasında çəkilən 28 kilometr uzunluğunda 48 lifli yeraltı fiber-optik kabel xəttinin tikintisi başa çatdırılıb və bu xətt üzərində 10 GB/s-lik telekommunikasiya sistemi qurulub.

Diqqətə çatdırılıb ki, ötən il "Naxtel" mobil operatoru abunəçilərinin sayı 87 mini ötüb. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən genişzolaqlı ADSL texnologiyası vasitəsilə il ərzində 7000-dən artıq yeni istifadəçi internetlə təmin olunub, əhali üzrə genişzolaqlı internet paylayıcı nöqtələrin aktiv sayı 30 minə yaxınlaşıb. "Elektron hökumət" portalında yenilənmə işləri davam etdirilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində 2019-cu ildə görülmüş işlər və 2020-ci ildə qarşıda duran vəzifələrlə bağlı keçirilən iclası giriş sözü ilə komitənin sədri Vaqif Rəsulov açıb. Bildirib ki, Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıyaalınmasına yardım komissiyasının yaradılması haqqında" Sərəncamının icrası ilə əlaqədar yaradılan komissiyanın qərarı ilə təsdiq edilmiş iş planına əsasən müəyyən işlər həyata keçirilərək 2019-cu il oktyabr ayının 1-dən 10-dək muxtar respublikada əhalinin növbəti siyahıyaalınması təmin edilib. Əhalinin siyahıyaalınmasında sorğu yolu ilə əldə olunan fərdi göstəricilərin elektron məlumat bazasına daxil edilərək yekun məlumatların əldə edilməsi məqsədilə yeni server quraşdırılıb, proqram təminatı hazırlanıb. Həmçinin komitə tərəfindən muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı təhlili materialların hazırlanaraq kütləvi informasiya vasitələrində dərc etdirilməsi diqqətdə saxlanılıb, 2019-cu ildə, ümumilikdə, 126 adda təhlil, o cümlədən 28 tematik material hazırlanıb.



Qeyd edilib ki, ötən dövr ərzində şəhər və rayon statistika idarələri ilə birlikdə, ümumilikdə, 69 min 419 təsərrüfat subyektindən 100 min 701 sayda hesabat yığılıb ki, bunların da 100 faizi onlayn rejimində təqdim olunub. Hesabatlar əsasında muxtar respublika üzrə iqtisadi, sosial, demoqrafik və ekoloji sahələrin vəziyyətinə dair göstəricilər əldə edilib. Bundan əlavə, 2019-cu ildə muxtar respublikanın inzibati ərazi dairələrində 114 min 269 təsərrüfat subyektinə dair göstəricilərin aktuallaşdırılması təmin edilib. Statistik vahidlərin Dövlət reyestrində qeydiyyatda olan 1954 təsərrüfat subyektinin göstəricilərinin aktuallaşdırılması nəzərdə tutulan vaxtda başa çatdırılıb.

Vurğulanıb ki, bəhs olunan dövrdə, ümumilikdə, 644 müxtəlifməzmunlu sənəd daxil olub və icrası vaxtında təmin edilib. Bundan əlavə, vətəndaşlar tərəfindən komitənin elektron poçt ünvanlarına 7, yazılı surətdə isə 2 müraciət, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən elektron sənəd dövriyyəsi sisteminə isə 6 kollegiya qərarı, 33 məktub daxil olub. Kollegiya qərarları işə alınıb, digər müraciət və məktublar isə qanunvericiliklə nəzərdə tutulmuş vaxtda cavablandırılıb.

İclas məruzə ətrafında çıxışlarla davam edib.

**Xəbərlər şöbəsi**



*Bu gün ölkəmizdə sosial və iqtisadi sahələrdə qazanılan uğurlar müasir və qüdrətli milli ordunun formalaşmasına imkan verir. Ordu quruculuğuna müstəqillik qazandığımız ilk illərdən başlanılsa da, ümummilli liderimiz Heydər Əliyevin siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin bu sahəyə xüsusi diqqəti regionda ən güclü və peşəkar ordunun formalaşması ilə nəticələnib. Ölkə Prezidentinin çıxışlarından birində qeyd etdiyi kimi:* ***“Azərbaycanda ordu quruculuğu işlərinə də çox böyük diqqət veririk. Son illərdə bu istiqamətdə çox böyük nailiyyətlər əldə edilib. Bizim artıq peşəkar ordumuz var. Ordunun döyüş qabiliyyəti çox yüksəkdir. Ordumuzun maddi-texniki bazası son illər ərzində yüksək dərəcədə gücləndirilibdir. Heç kim bu gün Azərbaycana döyüş meydanında öz iradəsini diktə edə bilməz”.***

## Hərbi qulluqçuların mənzil-məişət şəraitləri diqqətdə saxlanılır

Artıq müasir və qüdrətli milli ordusu formalaşmış ölkəmizin ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu tədbirləri uğurla həyata keçirilir. Muxtar respublikada ordu, birləşmə və hissələrin döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi ilə yanaşı, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, hər il yeni xidməti yaşayış binaları tikilir, zabit-gizir ailələri mənzillərlə təmin olunurlar.

Ötən il dekabr ayının 31-də Naxçıvan hərbi şəhərciyində zabit yataqxanasının istifadəyə verilməsi də bu istiqamətdə görülən məqsədyönlü işlərin məntiqi davamıdır.

Məlumat üçün qeyd edək ki, zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan bina yenidən qurulub, qapı və pəncərələr dəyişdirilib. 220 yerlik binada bütün yataq otaqlarının mebelləri yenilənib, mərkəzləşmiş anten sistemi qurulub, telefon çəkilib, 2 VİP otaq, eləcə də növbətçi və komendant otaqları istifadəyə verilib. Zirzəmidə bərbər, hamam, camaşırxana, qazanxana yerləşir. Binanın həyətində də abadlıq işləri aparılıb, istirahət köşkü qoyulub.

Bununla yanaşı, şəhərcikdəki bütün yaşayış binaları da təmir olunaraq pəncərələri dəyişdirilib, havalandırma sistemləri qurulub, elektrik, qaz, su və kanalizasiya xətləri yenilənib. Hərbi şəhərciyin ərazisi tamamilə asfaltlanıb, hərbçi ailələrinin istirahəti üçün lazımi işlər görülüb, futbol, basketbol və voleybol meydançaları yaradılıb, uşaq əyləncə qurğuları qoyulub, yollar genişləndirilib, yaşıllıqlar salınıb. Həmçinin Naxçıvan Qarnizonu tam orta məktəbində və uşaq bağçasında da təmir işləri aparılıb.



Biz də yeni istifadəyə verilən zabit yataqxanasının şəraiti ilə tanış olmaq, yeni evlə təmin edilən hərbi qulluqçuların sevincini bölüşmək üçün Naxçıvan hərbi şəhərciyinə üz tutduq.

Burada həmsöhbətlərimdən biri muxtar respublikamızda yeni xidmətə başlamış Qazax rayonundan olan leytenant Musa Avacəlilov oldu. Onun dediklərindən: – Yeddi aydır ki, Naxçıvanda xidmət edirəm. Əvvəllər burada xidmət aparan zabit yoldaşlarımızla söhbət edərkən onlar Naxçıvanda ordu quruculuğu sahəsində görülən işlərdən, zabitlər üçün yaradılan şəraitdən, bir sözlə, muxtar respublikanın ümumi mənzərəsindən ağızdolusu danışırdılar. Qismət elə gətirdi ki, xidmətimə muxtar respublikada başladım. Bu gün mənim kimi hər bir zabit göstərilən qayğı və etimadı daim öz üzərində hiss edir. Hərbi hissələrdə yeni əsgər yataqxanalarının, tibb məntəqələrinin, təlim-tədris mərkəzlərinin, hərbi şəhərciklərdə yeni yaşayış binalarının tikilməsi və məişət avadanlıqları ilə təchiz olunması buna bariz nümunədir. Bir sözlə, mən fəxr edirəm ki, bu qədim yurd yerində, Naxçıvanda Vətənə xidmət edirəm.

Tovuz rayonundan olan leytenant Elsevər Namazov isə öz xidmətinə Naxçıvanda başlamasının onun üçün xoşbəxtlik olduğunu söyləyir. O qeyd edir ki, Vətənin hər yerində xidmət aparmaq müqəddəs bir vəzifədir. Ancaq şəxsən mən buraya ilk gəldiyim gündən etibarən ordu quruculuğu sahəsində şahidi olduğum inkişafa görə xidməti yoluma Naxçıvandan başladığım üçün fəxr edirəm. Əvvəllər muxtar respublikaya səfər etməmişdim. Yeddi aydan artıqdır ki, burada xidmətdəyəm. Naxçıvana ilk gəldiyim gündən etibarən bütün sahələrdəki inkişafın şahidi olmuşam. Burada insanlar xoşbəxt, gülərüz, istiqanlı və mehribandırlar. Bizə göstərilən diqqət və qayğı göz önündədir. Gözəl, işıqlı, hər bir şəraiti olan otaqlarla təmin olunmuşuq. Bu da bizim həm sevincimizi, həm də məsuliyyətimizi daha da artırır. Biz zabitlər üçün yaradılan şərait bir hərbi qulluqçu kimi məni də çox sevindirir. Şəxsi heyətlə keçirilən görüş zamanı Ali Məclis Sədrinin dediklərini xatırlayıram: ***“Zabit ailələrinin normal yaşayışının təmin olunması bu gün qarşıda duran əsas məsələlərdəndir. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülür. Bu il Kəngərli rayonunun Qıvraq qəsəbəsində zabit ailələri üçün 44 mənzilli yaşayış binası istifadəyə verilmişdir. Həmçinin Naxçıvan şəhərində yerləşən hərbi şəhərcikdə də zabit ailələrinin yaşayışı üçün lazımi şərait yaradılmışdır. Ərazidə müasir məktəb və uşaq bağçası, xidmət sahələri və tibb məntəqəsi fəaliyyət göstərir. Bu gün isə subay zabitlər üçün yataqxananın açılışı olmuşdur. Bütün bunlar da imkan verir ki, zabitlərimiz öz xidmətlərini rahat həyata keçirə bilsinlər”.*** Bu dəyərli fikirlər üzərimizə düşən məsuliyyətimizi daha da artırır. Biz də, öz növbəmizdə, yaradılan şəraitdən səmərəli istifadə edərək, xidmətimizi qüsursuz yerinə yetirərək göstərilən etimadı doğruldacağımıza söz veririk.

Bu gün Azərbaycan Ordusunun əldə etdiyi uğurların arxasında, heç şübhəsiz, onlara göstərilən diqqət və qayğı dayanır. Bu qayğının qarşılığında, əlbəttə, böyük tələb və etimad var. Bu tələb torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, ordumuzun günü-gündən gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılmasıdır. Apardığımız söhbətlərdən də məlum olur ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bu etimadı doğrultmağa çalışan hər bir hərbi qulluqçu üçün həyat amalıdır.

**Pərviz HACILI**

## Ötən il uğurlarla yadda qalıb



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində 2019-cu il ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə dair kollegiya iclası keçirilib. İclası xidmətin rəisi Müslüm Cabbarzadə açaraq bildirib ki, göstərilən dövlət qayğısı nəticəsində informasiya infrastrukturu təkmilləşdirilib, yeni server, təhlükəsizlik və şəbəkə avadanlıqları alınaraq quraşdırılıb. Ordubad Rayon İdarəsi müasir iş şəraiti ilə təmin olunmuş inzibati binaya köçürülüb.

Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması üzrə əsas işlər yekunlaşdırılıb, sistem sınaq rejimində istifadəyə verilib. Kəngərli və Şərur rayonlarında, Şahbuz rayonunun 13, Sədərək rayonunun 1 yaşayış məntəqəsində daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılıb, il ərzində 19 min 924 belə obyekt plana alınıb.

Qəbul edilmiş dövlət proqramlarına uyğun olaraq Şərur rayonunun 6, Babək rayonunun 5 bələdiyyəsinin torpaqların qida maddələri ilə təmin olunmasına dair yeni kartoqramları hazırlanıb.

Naxçıvan şəhəri üzrə 57 nəqliyyat infrastukturu obyektinə dair ünvan lövhələri və giriş nömrə nişanlarının sənaye üsulu ilə hazırlanması və quraşdırılması işləri başa çatdırılıb. İl ərzində yeni yaranmış 682 daşınmaz əmlak obyektinə ünvan verilib.

Şərur rayonu üzrə 53, Babək rayonu üzrə 2 bələdiyyənin sərhəd xəritələri və müvafiq yerquruluşu sənədləri tərtib edilib.

Ötən il 240 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

Qeyd edilib ki, 2019-cu il ərzində muxtar respublika üzrə 6112 daşınmaz əmlak obyekti qeydiyyata alınıb ki, bu da 2018-ci ilin göstəricisindən 13,4 faiz çoxdur. 4671 texniki sənəd hazırlanıb, 833 torpaq sahəsinin planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. 273 əmlak real bazar dəyərinə uyğun qiymətləndirilib, 1685 əmlakın bazar dəyəri məlumat bankına daxil edilib. 96 yaşayış məntəqəsində vətəndaşlara səyyar xidmət göstərilib, 690 müraciətə baxılıb.

İclas məruzə ətrafında çıxışlarla yekunlaşıb.

* * *



Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində keçirilən iclası xidmətin rəisi Ramin İsmayılov açıb. Bildirilib ki, 2019-cu ildə muxtar respublika üzrə təbii qaz istehlakçılarının 1 yanvar 2020-ci il tarixə ümumi sayı 90 min 16 olub ki, bunun 87 min 352-si əhali, 2664-ü qeyri-əhali abonentidir. Muxtar respublikanın şəhər və rayon ərazilərindən ötən ilin 12 ayı ərzində daxil olan müraciətlərə əsasən 1133 mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb.

Qeyd olunub ki, ötən il də qaz təsərrüfatında istismara yararsız vəziyyətə düşən qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi diqqət mərkəzində saxlanılıb. Təbii qazdan qanunsuz istifadə hallarına yol verməmək üçün nəzarət gücləndirilib, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanılması təmin edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə verilən tapşırıqlar tədbirlər planı üzrə yerinə yetirilib.

Vurğulanıb ki, xidmət 2019-cu ilin oktyabr ayının 20-dək qaz təchizatı sistemində texniki baxışı yekunlaşdırmaq istiqaməti üzrə mövcud nasazlıqların aradan qaldırılması üçün tədbirlər görüb, təbii qazın şaxtalı hava şəraitində nəqli ilə əlaqədar hazırlıq işlərini vaxtında başa çatdırıb. Qaz sayğaclarına müdaxilənin qarşısını almaq məqsədilə yerlərdə abonent qutularının quraşdırılması, Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli sayğaclar ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilib, 1 yanvar 2020-ci il tarixə 19 min 981 qaz sayğacı quraşdırılıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın yaşayış məntəqələrində intensiv olaraq reydlər keçirilib, aşkarlanmış nöqsanlara və sayğaca müdaxiləyə görə, ümumilikdə, 18 abonentə 2240 manat cərimə tətbiq edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı idarə heyətinin ötən ilin yekunları ilə bağlı yığıncağı keçirilib. Yığıncaqda təşkilatın sədri Mirməcid Seyidov məruzə ilə çıxış edərək görülən işlər barədə danışıb. Qeyd olunub ki, 2019-cu ildə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının aidiyyəti təşkilatlarla əlaqələri daha da möhkəmlənib, müxtəlif mövzularda silsilə tədbirlər keçirilib.

Belə ki, hesabat ilində təşkilat, onun şəhər və rayon şöbələri tərəfindən 40-dan artıq tədbir təşkil olunub, kütləvi informasiya vasitələri ilə yaxından əməkdaşlıq edilib.

Hesabat dövrü ərzində müxtəlif kateqoriyalar üzrə müharibə iştirakçıları və şəhid ailələrinin qeydiyyatının aparılması işi davam etdirilib.

Vurğulanıb ki, təşkilatın həyata keçirdiyi tədbirlərin əsas məqsədlərindən biri gənc nəslə vətənpərvərlik hisslərinin aşılanması və onların doğma yurda məhəbbət ruhunda tərbiyə edilməsindən ibarətdir. Buna görə də milli qəhrəmanlarımızın, şəhidlərimizin xatirəsinə həsr olunmuş tədbirlərin təşkilinə daha ciddi önəm verilib, onların qəhrəmanlıqla dolu həyat yolunun televiziya və mətbuatda işıqlandırılmasında fəallıq göstərilib.

Sonra çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Gənclər hərbi xidmətə yola salınır



Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov, Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov, Gənclər və İdman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Zülfüqar Zeynalov çağırışçı gəncləri təbrik edərək övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib.

Çağırışçılar adından çıxış edən Cabir Kərimov Vətənə şərəflə xidmət edəcəklərinə, verilən əmrləri vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik-leytenant Daşqın Rəhimov bildirib ki, “Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli Sərəncamına əsasən ölkəmizdə, eləcə də muxtar respublikamızda çağırışçı gənclərin həqiqi hərbi xidmətə çağırılmasına başlanılıb.

Qeyd olunub ki, bu gün ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu sahəsində görülən işlər, bu sahəyə göstərilən dövlət qayğısı muxtar respublikamızdakı ordu birləşmələrinin hərtərəfli inkişafına şərait yaradıb. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikamızın təhlükəsizliyini sayıqlıqla qoruyan müasir və güclü ordusu vardır.

Xidmət rəisi çağırışçı gənclərin Vətənimizə layiqincə xidmət edəcəklərinə əminliyini bildirib, onlara uğurlar arzulayıb.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin ordu sıralarına yolasalma mərasimləri keçirilib.

*13 il bundan əvvəl – 2007-ci ilin dekabr ayında erməni yeparxiyası tərəfindən Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində “Novo-Naxiçevanskaya Armyanskaya Tserkov” kilsə binasının tikilməsi barədə mətbuatda məlumat yayılır. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Moskva şəhərinin ozamankı meri Yuri Lujkova məktub göndərir. Məktubda “Yeni Naxçıvan” adı ilə kilsə binası tikintisinin dini missiyadan çox siyasi motivlərə xidmət etdiyi diqqətə çəkilərək bu vəziyyətin xalqlarımız arasında tarixən formalaşmış dostluğa xələl gətirəcəyi bildirilir. Ali Məclisin Sədri tərəfindən məktubla bərabər rus yazıçısı R.İ.İvanovun “Bəyazitin müdafiəsi: həqiqətlər və yalanlar”, “Əlahəzrətin general yavəri” və general Cəmşid Naxçıvanskiyə həsr olunmuş “Sovet İttifaqı adından” kitabları, rus dilində Naxçıvan Muxtar Respublikasına həsr olunmuş “İrs” jurnalı da Moskvaya göndərilir. Bundan əlavə, muxtar respublikanın elm və ictimaiyyət nümayəndələri, Naxçıvandakı rus icması tərəfindən də 422 teleqram, 204 faks göndərilməklə kilsə binasının tikintisinə etiraz edilir…*

Jurnalist araşdırması

## Donda “əriyən” Naxiçevan və ya ermənilərin Naxçıvan “sevgisi” haradan başlayır?




İki ay sonra Naxçıvandan edilən bu etirazlara Moskvadan cavab gəlir. 2008-ci il fevralın 12-də Moskva merinin müavini Valeri Vinoqradov tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə rəsmi məktub göndərilir. Məktubda ermənilərin Rusiya paytaxtında “Novo-Naxiçevanskaya” adlı kilsə tikmələrinə bəraət qazandırılmağa çalışılır, vəziyyətdən çıxış yolu kimi həmin tikilinin adının Azərbaycanın Naxçıvan Muxtar Respublikasının adı ilə əlaqəli olmadığı əsas gətirilir.

Daha sonra məktubda Erməni Apostol Kilsəsinin Novo-Naxiçevanskaya və Rusiya yeparxiyasının 1836-cı ildə imperator I Nikolayın fərmanı ilə təsis olunduğu, 14 noyabr 1779-cu il tarixdə imperatriçə II Yekaterinanın fərmanı ilə Krım ermənilərinə Don çayının sağ sahilində torpaq sahəsi bəxş edildiyi bildirilir. Mer müavini qeyd edir ki, 1780-ci ildə ermənilər tərəfindən bu ərazidə indiki Rostov-Don şəhərinin tərkib hissəsi olan Novıy Naxiçevan şəhərinin əsası qoyulub və Erməni Apostol Kilsəsinin Rusiya yeparxiyasına da bu ad verilib *(Qeyd edək ki, həmin məktublar “Şərq qapısı” qəzetinin 20 fevral 2008-ci il tarixli nömrəsində dərc olunub).*

Təbii ki, burada əsas məsələ tikili yox, kilsənin “Yeni Naxçıvan” adlandırılması idi. Maraqlıdır, ermənilərin bu Naxçıvan “sevgisi” haradan qaynaqlanır? Azərbaycana qarşı əsassız torpaq iddialarının (hətta Dağlıq Qarabağdan da əvvəl) kökündə niyə məhz Naxçıvan dayanır? Niyə bu mənfur millət iki əsrdən çoxdur ki, Naxçıvana sahiblənməyi öz axmaq ideyalarının başında görür və bu istiqamətdə daim təbliğat aparır? Niyələr çoxdur, ancaq veriləcək cavablar ondan da çoxdur. Qoy oxucularımız da bilsinlər ki, üzdəniraq qonşularımızın Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvana qarşı əsassız iddiaları indi də səngiməyib, əksinə, bu gün də Rusiyada yaşayan xalqları özlərinin bu yalanlarına inandırmağa çalışırlar. Elə biz də bu yazıda vaxtilə Krım yarımadasından Don sahillərinə köçürülərək yaşadıqları yeri “Nor-Naxiçevan” (nor – erməni dilində yeni deməkdir) adlandıran, sonradan isə Rostov-Don şəhərinə birləşdirilən, indi isə, sadəcə, ermənilərin düşüncəsində “Naxiçevan-na Donu” kimi xatırlanan bölgədən bəhs edəcək, yalan üzərində qurulmuş erməni təbliğatının bugünkü mənzərəsindən bəzi məqamlara toxunacağıq.

Tarixi mənbələrə nəzər salsaq, görərik ki, 1787-1791-ci illərdə rus-türk müharibəsi başa çatdıqdan sonra 1799-cu ildə Rusiya imperatriçəsi II Yekaterinanın verdiyi fərmana görə ermənilər Krım yarımadasından köçürülərək “Şimali Qafqazın qapısı” hesab edilən Rostov qalasının ətrafına yerləşdirilir. Don çayının sahilinə köçürülən ermənilər yerləşdikləri yerə “Yeni Naxçıvan” adı verirlər. 1838-ci ildən sonra isə bu ərazini “Naxiçevan-na Donu” adlandırırlar. 1928-ci ildə isə bu kiçik qəsəbə Rostov-Don şəhərinin bir hissəsinə çevrilməklə Proletarnı rayonu adlandırılır və hazırkı adı da belədir.

ABŞ-da yaşayan və milliyyətcə gürcü olan, “Unudulmuş genosid”, “Erməni təbliğatının ikiüzlülüyü və yalanı” kitablarının müəllifi Feliks Sersvadze 2005-ci ildə Nyu-Yorkda nəşr olunmuş “Ermənistan və Dağlıq Qarabağ. Miflərin formalaşdırılması” kitabında yazır ki, 1799-cu ildə erməni arxiyepiskopu İosif Donda erməni muxtariyyəti təşkil etmək qərarına gəlir. Bu məqsədlə o, həmin əraziyə Türkiyə və Krımdan köçürülmüş on minlərlə erməni gətirdi və hətta gələcək muxtariyyətin paytaxtı kimi – Don üzərindəki Naxçıvan adlı şəhər də saldı. Rusiya hakimiyyətindən əla güzəştlər aldı: erməni əmlakının Krımdan dövlət hesabına daşınması, iribuynuzlu mal-qaranın saxlanması üçün bir neçə min desyatin torpaq, 10 il ərzində vergilərdən sərbəst olmaq, erməni gənclərinin rus ordusunda xidmətdən azad edilməsi. Bundan başqa, hər ev sahibinə 30-40 desyatin torpaq, ev tikmək üçün pulsuz inşaat materialları ayrılırdı. Toxum, mal-qara və iş alətləri 10 illiyinə verilirdi… Rusiya hakimiyyət dairələri erməni icması üçün böyük güzəştlərə gedir, hətta şəhər salmağa icazə verirdilər, lakin muxtariyyət yaratmağa qətiyyətlə icazə vermədilər. Yuxarıda adıçəkilən Don üzərindəki Naxçıvan şəhəri sonradan Rostov-Don şəhərinin tərkibində “əridi” və itdi. Amma Donda yaşamaları ermənilərə özlərini “Don kazakları” adlandırmaları üçün bəhanə verdi…

Maraqlıdır, ermənilər niyə yerləşdikləri bu yeri “Yeni Naxçıvan” adlandırmalı idilər?

Hamımıza məlumdur ki, qədimdən də qədim olan Naxçıvan Nuh Peyğəmbərin quruya ilk ayaq basdığı torpaqdır. Yəni bəşər sivilizasiyasının ikinci yaranışı bu müqəddəs yerdən başlayır. Ermənilər də hər kəsə özlərini qədim sivilizasiyanın bir hissəsi olduqlarını sübut etmək üçün Nuhun övladlarının soyundan gəldiklərini sırımağa çalışırlar. Erməni alimləri Nuhun Vətəni olan Naxçıvanı “Naxiçevan” formasına salmaqla sözü iki hissəyə ayırır və “Nax” hissəsini “birinci”, “ilkin”, “icevan” hissəsini isə “çıxış yeri”, “dayanacaq” kimi izah edirlər. Halbuki ermənicə “ilkin” ifadəsinin qarşılığı “himnakan”, “çıxış yeri”, “dayandığı yer” ifadəsinin qarşılığı isə “vayrejk”dir. Ancaq indiyə kimi heç kim Naxçıvanın adına heç bir mənbədə “Himnakan vayrejk” kimi rast gəlməyib. Türk dillərində, xüsusən Azərbaycan türkcəsində bu ifadə çox sadə və asan “Nuh çıxan yer” kimi izah olunur.


Rusiya Federasiyası, Moskva şəhərinin meri Lujkov Yuri Mixayloviçə

Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova

***“Novo-Naxiçevanskaya Armyanskaya Tserkov” kilsə binasının tikilməsi ilə bağlı “Şərq qapısı” qəzetinin 20 fevral 2008-ci il tarixli nömrəsində dərc olunan məktublar***

Burada bir məsələni də xüsusi vurğulamaq istəyirəm ki, yalan və iftiralar üzərində təbliğat aparan ermənilər əllərində olan bütün imkanlardan istifadə edirlər. Məsələn, bu gün hər hansı birimiz “Naxçıvan” sözünə internetdə rus dilində axtarış versək, ilk olaraq qarşımıza rusdilli Vikipediya çıxacaq. Bu Vikipediyaya nəzər salsaq, görərik ki, erməni tarixçiləri Naxçıvanla bağlı nə qədər uydurma, saxta məlumatları rusdilli oxuculara təqdim edirlər. Belə oxucuların kütləsi isə nə az, nə çox – yüz milyonlarla ölçülür. Təəssüflər olsun ki, bu gün tarixçilərimiz tərəfindən geniş auditoriyaya malik bu cür virtual ensiklopediyalarda rusdilli oxucular üçün hələ də Naxçıvanla bağlı sanballı məqalələr yerləşdirilməyib. Nəzərə alaq ki, son onilliklərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birbaşa tapşırığı, rəhbərliyi və tövsiyələri ilə muxtar respublikanın qədim tarixi və zəngin mədəniyyəti ilə bağlı çoxlu elmi kitablar nəşr olunub. Ancaq unutmayaq ki, ölkədən kənarda hər kəs Naxçıvanla bağlı məlumat almaq istəyəndə, ilk növbədə, internetə müraciət edir. Bu zaman isə qarşılarına erməni tarixçilərinin uydurduğu azərbaycanlıların “zorla zəbt etdikləri” “qədim erməni torpağı Naxiçevan”la bağlı məlumatlar da çıxır. Bir sözlə, Naxçıvan ermənilərin bütün yalan iddialarının başında gələn bir regiondur və bu üzdəniraq millət nə vaxtsa buraya da sahiblənəcəkləri ilə bağlı xülyalarına inanır. Uzağa getməyək, 2013-cü ildə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu yaradılanda bundan əməlli-başlı qorxuya düşən ermənilər hər gün müxtəlif bəyanatlar verirdilər. “Naxiçevan”ın milli-siyasi təşəbbüsləri” adlı provokasiya xarakterli bir bəyanatda deyilirdi: “Naxiçevan erməni etnosunun əsas formalaşmış ocaqlarından biri olub. 1921-ci ildə ora zorla Azərbaycana birləşdirilib. Lakin biz əminik ki, işğal altında olan bu yer gec, ya tez, öz tarixi sahibinin nəzarətinə keçəcək”. Belə sərsəm nümunələrin sayını yenə də artıra bilərik. Bilinən odur ki, mənfur qonşularımız Naxçıvana əsassız iddialarını bu gün də gizlətmirlər və Şimali Qafqazın paytaxt şəhəri sayılan Rostov-Don şəhərinin tərkibində itib-batmış “Naxiçevan” da bu gün mövcudluğunu müxtəlif informasiya portallarında, qəzetlərdə, bu uydurma kiçik “şəhər”in yerləşdiyi Proletarnı rayonundakı müxtəlif heykəl, abidə və lövhələrdə tarixi Azərbaycan torpağını “məzlum xalq”a məxsus bir məkan kimi yaşadır və təbliğ edirlər. Bu haqda isə növbəti yazımızda…




**Səbuhi HƏSƏNOV**
***Naxçıvan-Rostov-Don-Naxçıvan***

## Aqrar sığortanın tətbiqi kənd təsərrüfatının fasiləsiz inkişafına təminat yaradır

***İnsan üçün zəruri olan maddi nemətlərin istehsalında aqrar sahə mühüm yer tutur. Bu sahənin dinamik inkişafı ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı, aqrar sənaye müəssisələrinin xammalla təmin olunmasında da mühüm rol oynayır. Eyni zamanda müxtəlif təbii, texnogen və üçüncü şəxslərin hərəkəti mənşəli risk faktorlarına da həssas olan kənd təsərrüfatına müxtəlif səbəblərdən dəyən maddi zərərlərin əvəzinin ödənilməsinə xidmət edən aqrar sığorta da hazırda aktual məsələlərdəndir.***

Yanvar ayının 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Aqrar Sığorta Fondunun yaradılması barədə fərman imzalanıb. Bu mühüm dövlət sənədi kənd təsərrüfatının inkişafı üçün ardıcıl olaraq həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir. Belə ki, muxtar respublikada torpaqlardan səmərəli istifadə olunması, torpaq mülkiyyətçilərinə müxtəlif sahələrdə dəstək göstərilməsi, anbarlar yaradılması, satış yarmarkalarının təşkil olunması, maşın, mexanizm, gübrə təminatının yaxşılaşdırılması, məhsuldar sort və cinslərin yetişdirilməsi, xaricdən alınması, aqrar sahə üzrə mütəxəssislərin, aqronom və baytarların hazırlanması daim dövlətin diqqət mərkəzində saxlanılır. Görülən kompleks işlər nəticəsində diyarımızda bu sahənin dayanıqlı inkişafı, onun çoxşaxəliliyi təmin olunub, müxtəlif bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı üçün əlverişli zəmin yaradılıb. Artıq Naxçıvanda mövcud torpaq, su, iqlim ehtiyatlarından, habelə maddi-texniki bazadan səmərəli istifadə olunması ilə aqrar sahədə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları istehsalı üçün hər cür imkanlar vardır.

Kənd təsərrüfatı Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında sənayedən sonra ikinci böyük sahədir. Buna görə də aqrar sahənin potensial risklərdən zərər görmədən dayanıqlı inkişafı dövlətin iqtisadi və sosial cəhətdən prioritet kəsb edən qərarlarında öz yerini qorumaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Dövlət Baş Sığorta Agentliyi qarşısında muxtar respublikada sığorta işinin təkmilləşdirilməsi, könüllü sığortanın tətbiqi və səyyar xidmətin əhatə dairəsinin genişləndirilməsi, insanların maarifləndirilməsi ilə yanaşı, sığorta bazarında aqrar sektorun xüsusi çəkisinin artırılması kimi mühüm vəzifələr qoyulub. Bu vəzifələrin icrası istiqamətində görülmüş işlər muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinə müsbət təsir edir.

Kənd təsərrüfatı məhsulları istehsalında çox sayda qəfil hadisələr baş verə bilər. Bu sahədəki sahibkarlara istər əkinçilik, istərsə də heyvandarlıq məhsullarının istehsalında, habelə hazır məhsulun daşınması və anbarlanması zamanı yaranan qəfil, gözlənilməz təbii fəlakətlər – zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına, dolu, həmçinin yanğınlar, bitki xəstəlikləri və zərərvericilər, yoluxucu xəstəlik və zəhərlənmələr, ilan və həşərat sancmaları, zəhərli otlar və yemlərdən zəhərlənmə, kütləvi zəhərlənmələr nəticəsində ölüm, habelə vəhşi heyvanların hücumu və üçüncü şəxslərin hərəkətləri nəticəsində xeyli zərər dəyə bilər. Bütün bunlar aqrar sahə ilə məşğul olan vətəndaşların ilboyu çəkdiyi zəhməti hədər edən zərərlər doğurur ki, bu da kənd təsərrüfatında sığorta işinin aktuallığını bir daha artırır.

Ərzaq təhlükəsizliyinin gücləndirilməsi, idxalın əvəzedilməsi və ixrac potensialının gücləndirilməsi məqsədilə aqrar sığortanın predmetinə kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları üzrə buğda, arpa, qarğıdalı, kartof, şəkər çuğunduru, limon, tütün, üzüm, badam, kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar üzrə isə 1 yaşdan 7 yaşa qədər südlük inək və camışlar, həmçinin akvakultura məhsulu üzrə balıqlar daxil edilir. Qeyd edək ki, bu məhsulların sığortasında Aqrar Sığorta Fondu da iştirak edəcək və riskin 50 faizini öz üzərinə götürəcək. Aqrar sığortanın bu istiqamətlərdə tətbiqi məşğulluğun artması ilə yanaşı, sadalanan məhsulların istehsalında artım, bazardakı qiymətlərin sabitləşməsi, investisiya risklərinin azaldılması, fermerlərin himayəsinin gücləndirilməsi, istehsalı genişləndirmək üçün şəraitin təmin edilməsi və sığorta bazarının gücləndirilməsi məqsədi daşıyır.

Kənd təsərrüfatında sığorta könüllü formada həyata keçirilir. Burada sığortanın şərtləri və aparılması qaydaları qanunvericiliyə uyğun olaraq sığortalı və idarəedici qurum tərəfindən yazılı formada bağlanır. Sığorta müqaviləsi üzrə aqrar sığortalı tərəfindən sığortahaqqının ödənilməsi aqrar sığortalının müvafiq sığorta qaydaları və sığorta müqaviləsinin şərtləri ilə tanış olmasını, həmin qaydalar və şərtlərlə razılaşdığını, həmçinin sığorta müqaviləsinin bağlanılması faktını təsdiqləyir. Aqrar sığortahaqqı sığorta qaydalarına əsasən idarəedici qurum tərəfindən hər bir sığorta məhsulu üzrə ayrıca hesablanır və kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları, kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar, akvakultura məhsulu üzrə sığortahaqqının 50 faizi sığortalı, digər 50 faizi isə dövlət büdcəsi hesabına ödənilir.

Kənd təsərrüfatında dövlət tənzimlənməsi və sahibkarlara dövlət dəstəyinin göstərilməsi bir reallıqdır. Aqrar sığorta da burada sahibkarın maraq və mənafelərini qoruyan bir xidmət sahəsi kimi özünü göstərir. Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunmasına göstərilən hərtərəfli diqqət aqrar sığorta sahəsində də gələcəkdə mühüm uğurlara təminat verir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin mətbuat xidməti***

*Unutsaq, unudularıq*

# Mənim şəhid atam...

***Vətənpərvərliyin ən ali məqamı şəhidlikdir. Bu ucalığa yüksələn qəhrəmanların ömür yolu qısa olsa da, şərəflidir. Qəhrəmanlıq bir anın bəhrəsi deyil, xarakterin, tərbiyənin, mənəvi yaddaşın gücü ilə diktə olunan keyfiyyətdir. Elə bir keyfiyyət ki, onun mahiyyətində təsadüf adlanan heç nə yoxdur... Torpağın qorunması, Vətənin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Bu zirvəyə gedən yol Vətən, torpaq, millət sevgisindən keçir.***



Azərbaycanın elə bir bölgəsi, elə bir şəhəri, kəndi tapılmaz ki, orada bir şəhid məzarı olmasın. Belə şəhidlərdən biri də həmişə qürur duyduğum və övladı olduğum üçün iftixar hissi keçirdiyim, bütün şəhidlər kimi adını Vətənimizin, dövlətimizin tarixinə qızıl hərflərlə yazan, qəhrəmanlıq mücəssəməsi kimi hər bir azərbaycanlı gəncə nümunə olan atam – Məmməd Məmmədovdur.

Atam 1949-cu il may ayının 1-də Şərur rayonunun Danyeri kəndində dünyaya göz açmışdır. 1969-1971-ci illərdə hərbi xidmətdə olmuş, uzun illər Şərur rayon 6 nömrəli səyyar mexanikləşdirilmiş dəstəsində sürücü işləmişdir. Altı övlad atası idi və həyatının ən gözəl çağları ölkəmizin o ağır dövrlərinə təsadüf etmişdi. Elə bir dövr ki məkrli düşmənlər ölkəmizin dilbər guşəsi Qarabağla yanaşı, Azərbaycanın ayrılmaz parçası olan Naxçıvana da göz dikir, bu tarixi diyarı işğal etmək istəyirdilər.

20 Yanvar faciəsi ərəfəsində hiylәgər düşmən Naxçıvan üçün hazırladığı qara planları həyata keçirməyə cəhd göstərirdi. Belə ki, 1989-cu il dekabrın 14-də ermənilər tərəfindən güclü atəşə tutulan Sədərək, Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər saat 11 radələrindən etibarən daha intensiv hücumlara məruz qaldı. O vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmişdi. Həmin gün Sədərək ilk dəfə top atəşinə tutuldu. Ermənilərin yanvarın 19-da böyük cidd-cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi isə onu göstərirdi ki, xain qonşularımız Bakıya qoşun yeridiləcəyindən və bununla da Naxçıvanın köməksiz qalacağından xəbərdar olublar. Bu isə SSRİ rəhbərliyinin çirkin planının tərkib hissəsi idi.

Naxçıvanlılar qədim diyarın müdafiəsi uğrunda yumruq kimi birləşdilər. Həmin ərəfədə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Kərkinin geri alınması, Sədərəyin müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olanların sayı saatbasaat artırdı. Məmməd Məmmədov, Məhərrəm Seyidov, Etibar Əhmədov, Abbasəli Nəzərəliyev, İdris Məmmədov kimi igidlər ağır döyüşlərdə qəhrəmancasına həlak oldular. Bütün bunlara baxmayaraq, ermənilər gözləmədikləri müqavimətə rast gəldilər və Sədərəyin müdafiə xəttini keçə bilmədilər. Naxçıvanlıların bu qəhrəmanlığı sovet rəhbərliyini də çaşbaş salmışdı.

Həmin günlərdə silah-sursat az olsa da, naxçıvanlılar bir addım belə, geri çəkilmək barədə düşünmürdülər. Hər kəsin ümumi fikri bu idi ki, sona qədər döyüşəcək, ölsək də, bir qarış torpağı düşmənə verməyəcəyik. Belə də oldu.

Qeyd etdiyim kimi, yanvarın 18-dən 19-na keçən gecə baş verən döyüşlərdə ən böyük problem silah çatışmazlığı idi. Əhali müdafiə olunmaq üçün silaha böyük ehtiyac duyurdu. Əldə olan silah isə, əsasən, ov tüfəngləri idi. Həmin vaxt Sədərəyə ilk köməyə Ordubad və Şərur rayonlarından 40 könüllü gəldi. Həmin könüllülərdən biri də atam idi. Evdən çıxanda tələsik “ata, hara gedirsən”, – deyə soruşduqda, “bala, sizin hamınızı, kəndimizi, torpaqlarımızı qorumağa gedirəm. Mən getməsəm, o getməsə, bəs kim qoruyacaq bu torpaqları?” cavabını aldıq. İki gün, iki gecə ön cəbhədə döyüşən atam 19 yanvar 1990-cı ildə, təxminən, axşam saat 6 radələrində qərargah raketlərlə atəşə tutulan zaman qəhrəmancasına şəhid oldu. Atam Şərur rayonunun Danyeri kəndindəki məzarlıqda uyuyur. Danyeri kənd tam orta məktəbinin yanında isə büstü ucaldılıb.

Arada nə az, nə çox, düz 30 illik ayrılıq, həsrət olsa da, haqq və əbədiyyət dünyasındakı atama qürurla səslənirəm: “Şəhid atam! Bütün yüksəkliklərdən ucada dayanan bir zirvə var: Şəhidlik zirvəsi. Bu zirvəyə qalxmaq isə hər kəsə nəsib olmur. Yalnız müqəddəs amallar uğrunda vuruşan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli, qeyrətli insanlar yüksələ bilərlər müqəddəs zirvəyə. Bu yüksəkliyə ucalan insanlar ölmürlər, əksinə, ölümləri ilə bir əbədilik qazanırlar. Sizlərin Vətənə olan sevgisi bir örnəkdir. Sən və sənin kimi neçə-neçə şəhidlərimiz Vətən sevginizlə gənclərimizin vətənpərvər ruhda tərbiyə olunmasına bir nümunə oldunuz. Rahat uyuyun, ata!”

Tarixin bütün dönəmlərində özünü qəhrəmancasına müdafiə edən tarixi türk diyarı Naxçıvan bu gün də igid, qəhrəman əsgərlərimiz tərəfindən göz bəbəyi kimi qorunur. Burada xidmətin günün tələbləri səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb, maddi-texniki baza tələb olunan səviyyədə möhkəmləndirilib, həyata keçirilən kompleks tədbirlər hərbçilərin döyüş qabiliyyətinin və mənəvi-psixoloji səviyyəsinin yüksəlməsinə səbəb olub. Doğma Naxçıvanımızın keşiyində dayanan Əlahiddə Ümumqoşun Ordu bu gün istənilən hərbi vəzifəni yerinə yetirmək qüdrətindədir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: ***“Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.***

Bu gün 1990-cı illərdə baş verən hadisələrin yenidən təkrarlanması qeyri-mümkündür. Çünki Naxçıvan o illərdəki təklənmiş, unudulmuş Naxçıvan deyil. Ümummilli liderimizin 20 Yanvar hadisəsinin ardınca Moskvadan Bakıya, oradan isə Naxçıvana gəlməsi, burada Ali Məclisin Sədri vəzifəsində çalışmağa başlaması Naxçıvan haqqında düşmənin məkrli planlarını alt-üst etdi. Düşmən tərəfindən blokadaya salınan Naxçıvan ulu öndərin siyasəti ilə çətinliklərini yavaş-yavaş aşmağa başladı. O günlərdən bu günlərə ötən 30 ildə isə muxtar respublikamız haqqında bunları demək olar: Naxçıvan sürətlə inkişaf edən, vətənpərvərlik yanğısı ilə yenidən ucaldılan, düşmənə gözdağına çevrilən qüdrətli diyardır.

**Zamin MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikası Gömrük Xidməti polkovnik-leytenantı***

***Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən eksternat qaydada aralıq imtahanı keçirilib.***

## Eksternat qaydada imtahan keçirilib

İmtahanda müxtəlif səbəblərdən ümumi orta və tam orta təhsil səviyyəsini başa vura bilməyən və həmin səviyyə üzrə buraxılış imtahanı verərək attestat almaq istəyən namizədlər iştirak ediblər.

Sərbəst (eksternat) təhsilalma forması əsasında müstəqil hazırlaşıb ümumi orta və ya tam orta təhsil üzrə buraxılış imtahanlarında iştirak etmək istəyən şəxslərin 1 noyabr 2019-cu il tarixdən 10 yanvar 2020-ci il tarixədək Təhsil Nazirliyində sənəd qəbulu aparılıb. Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbdə keçirilən imtahanlarda ümumi orta təhsil bazasından 161, tam orta təhsil bazası üzrə isə 318 olmaqla, ümumilikdə, 479 nəfər iştirak edib.

Ümumi və tam orta təhsil səviyyəsi üzrə attestat almaq üçün müraciət edənlər hər birindən 10 sual olmaqla, 6 fənn ( kimya, fizika, informatika, tarix, biologiya və coğrafiya) üzrə imtahan veriblər. Sualların cavablandırılması üçün 90 dəqiqə vaxt müəyyənləşdirilib.

İmtahanlarda uğur qazanmış şəxslər Dövlət İmtahan Mərkəzi tərəfindən tam və ümumi orta təhsil səviyyələri üzrə keçiriləcək buraxılış imtahanlarında iştirak edəcək, həmin imtahanlardan müsbət qiymət alanlara ümumi orta və ya tam orta təhsil haqqında attestat veriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Yeni startap layihəsinin təqdimatı olub

*Naxçıvan Muxtar Respublikasının Turizm Departamentində “Peşəkar ofisiant” startap layihəsinin təqdimatı keçirilib.*



Tədbiri giriş sözü ilə departamentin direktoru Əkbər Novruzov açaraq bildirib ki, bu startap layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamına əsasən hazırlanıb. Layihədə iştirakla əlaqədar elan verilib, bir ay müddətində sənəd qəbulu aparılıb və müraciət etmiş 38 nəfər təlimdə iştirak hüququ qazanıb.

Qeyd olunub ki, təqdimatı keçirilən “Peşəkar ofisiant” startap layihəsi ictimai iaşə obyektlərində və hotellərdə personalın hazırlıq səviyyəsinə əhəmiyyətli dərəcədə müsbət təsir edəcəkdir. Layihə çərçivəsində ofisiantlara təlimlər keçiriləcək, təlimlər zamanı həm nəzəri biliklərin artırılmasına, həm də praktik bacarıqların inkişafına xüsusi diqqət yetiriləcəkdir. Təlimlərin sonunda keçiriləcək imtahanlarda müvəffəqiyyət qazanmış ofisiantlara sertifikatlar təqdim olunacaq.

Tədbirdə çıxış edən “Nəqşicahan Holdinq Şirkətlər Qrupu” MMC-nin iqtisadi məsələlər üzrə direktor müavini Rifat Mahmudov ictimai iaşə obyektlərində xidmətin təşkili ilə bağlı ümumi məlumat verib.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşı Həsən Kərimovon çıxışından sonra qrafikə əsasən ilk təlim keçirilib.

**Xəbərlər şöbəsi**

## Təlim-məşq toplanışı başa çatıb



*Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə hakimlər üçün Şərur Olimpiya İdman Kompleksində keçirilən 5 günlük təlim-məşq toplanışı başa çatıb.*

Gənclər və İdman naziri, Naxçıvan Futbol Federasiyasının sədri Azad Cabbarov hakimlərlə görüş zamanı regionun və ümumilikdə, ölkənin futbol mühiti, inkişaf perspektivləri ilə bağlı fikirlərini bölüşüb. Qazanılan uğurlarla yanaşı, daha yüksək hədəflərin reallaşması üçün regional idman federasiyalarının da böyük məsuliyyət daşıdığını diqqətə çatdıran federasiya sədri bu istiqamətdə birgə və səmərəli fəaliyyətin önəmli olduğunu deyib.

Bildirilib ki, bu gün Naxçıvanda futbolun inkişafı, kütləviliyinin təmin olunması üçün lazımi şərait yaradılıb. Məşqçi-müəllimlər, eləcə də bu sahə ilə yaxından maraqlananlar bundan səmərəli istifadə edərək muxtar respublikada futbolun inkişafına töhfə verməlidirlər. Ötən dövr ərzində futbolun müəyyən istiqamətlərində layihələr, yarışlar, kurs və seminarlar təşkil olunub. Ölkə futboluna inteqrasiya prosesləri muxtar respublikada bu sahənin inkişafına mühüm töhfədir. Altı aya yaxın bir zamanda müntəzəm şəkildə keçirilən seminar, kurs və taktiki-texniki məşğələlər nəticəsində Naxçıvan futboluna yeni hakimlər cəlb olunub.

Təlim-məşq toplanışı məqsədilə Bakıdan dəvət olunan qonaqlara təşəkkür edən federasiya sədri hakimlərin mütəxəssislərimizin bilik və bacarıqlarından maksimum yararlanmalı olduqlarını, gələcək perspektivləri nəzərə alaraq xarici dil biliklərinə yiyələnmələrinin vacibliyini deyib. Uğurlu karyera qura bilmələri üçün onlara hər cür şərait yaradılacağı, dəstək veriləcəyi diqqətə çatdırılıb.

Görüş zamanı FİFA referiləri Anar Salmanov, Ömər Paşayev və fiziki hazırlıq üzrə məşqçi Rüstəm Rüstəmli Naxçıvan futbolunun inkişafında göstərdikləri xidmətlərə görə təltif olunublar. AFFA Hakimlər Komitəsinin üzvü Anar Salmanov göstərilən diqqətə görə minnətdarlıq edərək Naxçıvan hakimlərinin peşəkar səviyyəyə çatması üçün bundan sonra da səylə çalışacaqlarını deyib. Mövcud imkanlar, görülən işlər və gələcəklə bağlı inkişaf perspektivləri barədə məlumatlar diqqətə çatdırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

## Alimin məqaləsi beynəlxalq jurnalda çap edilib




“İRS-Heritage” beynəlxalq jurnalın növbəti sayında AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin “Xristianlığın ilk şəhid milləti ermənilərdirmi?” mövzusunda məqaləsi dərc olunub.

Rus dilində çap olunan məqalədə “böyük erməni tarixi”ni yaratmaq üçün “Nuhun nəvələri və varisləri”, “vəd olunmuş torpaqlar”, “yer üzünün ilk xristian etnosu və dövləti” kimi iddialar ortaya atan, tarixlərini real olaraq deyil, görmək istədikləri kimi dəyişdirməyə çalışan saxtakar erməni yalanlarından bəhs edilir.

Qeyd olunur ki, erməni iddialardan biri də “xristianlığın ilk şəhid milləti” iddiasıdır ki, bu da 1915-ci il hadisələrini müsəlman-xristian toqquşması kimi bütün dünya ictimaiyyətinə təhrif olunmuş şəkildə tanıtmaqdır.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*İtmişdir*

Fətəliyev Mübariz Abdulla oğlunun adına olan avtomobilin 90TX-602 nömrəli dövlət qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 38**